**Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 7.7-ci “Palatada fəaliyyət göstərən “Dəyirmi masa”, təşkil olunan seminar, konfrans və s. tədbirlərdə Palatanın üzvlərinin iştirakının monitorinqi” bəndinə və Palata sədrinin 2022-ci il 12 yanvar tarixli 1/2 nömrəli “Auditorlar Palatasında keçiriləcək tədbirlərin (konfranslar, simpoziumlar, “dəyirmi masa”lar, seminarlar, ustad dərsləri və s.) təşkili və təşviqi barədə” Sərəncamının 5-ci bəndinə uyğun olaraq 2023-cü il ərzində Auditorlar Palatasının təşkil etdiyi “dəyirmi masa”, seminar və ustad dərslərində Palata üzvlərinin iştirakının monitorinqi haqqında**

# A R A Y I Ş

Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 7.7-ci “Palatada fəaliyyət göstərən “Dəyirmi masa”, təşkil olunan seminar, konfrans və s. tədbirlərdə Palatanın üzvlərinin iştirakının monitorinqi” bəndinə və Palata sədrinin 2022-ci il 12 yanvar tarixli 1/2 nömrəli “Auditorlar Palatasında keçiriləcək tədbirlərin (konfranslar, simpoziumlar, “dəyirmi masa”lar, seminarlar, ustad dərsləri və s.) təşkili və təşviqi barədə” Sərəncamının 5-ci bəndinə uyğun olaraq Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov) tərəfindən 2023-cü il ərzində Palata üzvlərinə peşə fəaliyyətlərində dəstək göstərilməsi məqsədilə Auditorlar Palatasının təşkil etdiyi “dəyirmi masa”lar, seminar və ustad dərslərində mütəmadi olaraq Palata üzvlərinin iştirakının monitorinqi aparılmışdır.

Monitorinqin nəticələrinə əsasən 2023-cü il ərzində 14 seminar-ustad dərsləri keçirilmişdir.

Aparılmış monitorinqin nəticəsinə əsasən 11 auditor təşkilatı (“ACCEPT-AUDIT” MMC, “BKR CONSULTİNG” MMC, “BKR İŞIK KONSALTİNQ” MMC, “EKOL AUDIT” MMC, “FCHAİN AUDİT” MMC, “L.B. AUDİT XİDMƏTİ” MMC, “MODERN AUDİT SERVİS” MMC, “PROFESSİONAL FİNANCİAL EXPERTS” MMC, “TNM AUDİT” MMC, “SR AUDİT SOLUTİONS” MMC, “XƏZƏR-AUDİT 2020” MMC) və 4 sərbəst auditor (Altay Cəfərov, Elnur İbrahimov, Elvin Əliyev, Hafiz Əhmədov) keçirilmiş seminar və ustad dərslərinin hər birində iştirak etmişdir.

Eyni zamanda keçirilmiş tədbirlərin 60%-dən çoxunda 50 auditor təşkilatı (32%) və 20 sərbəst auditor (29%) iştirak etmişdir (1 və 2 saylı siyahı əlavə olunur).

Qeyd etmək istərdim ki, 23 auditor təşkilatı (15%) və 7 sərbəst auditor (10%) isə keçirilmiş tədbirlərin 30%-dən azında iştirak etmişdir (3 və 4 saylı siyahı əlavə olunur).

Təəssüflər olsun ki, ümumilikdə 39 auditor təşkilatı (24%) və 23 sərbəst auditor (33%) keçirilmiş tədbirlərin heç birində iştirak etməmişdir (5 və 6 saylı siyahı əlavə olunur).

Müsbət haldır ki, 2022-ci il ilə müqayisədə 2023-cü ildə Palata tərəfindən keçirilmiş tədbirlərdə iştirak etməyən üzvlərin sayı auditor təşkilatları üzrə 52-dən 39-a, sərbəst

auditorlar üzrə isə 25-dən 23-ə enmişdir. Tam iştirak edən üzvlərin sayı isə auditor təşkilatları üzrə 4-dən 11-ə, sərbəst auditorlar üzrə isə 1-dən 4-ə artmışdır.

Əlavə olaraq bildirmək istəyirəm ki, 2023-cü il ərzində Auditorlar Palatası tərəfindən ümumilikdə 6 "dəyirmi masa" təşkil olunmuşdur. 25 nəfər "dəyirmi masa" üzvündən 5-i ("TNM Audit" MMC-nin direktor-auditoru Nəcəf Talıbov, sərbəst auditorlar Elnur İbrahimov, Nazim Axundov, Vidadi Talıbov, Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Qoşqar Əhmədov) təşkil edilmiş 6 "dəyirmi masa"nın hər birində iştirak etmiş, 2 auditor təşkilatı isə ("PRAYSVOTERHAUSKUPERS AUDİT AZƏRBAYCAN" MMC-nin direktor-auditoru Fəxri Mustafayev və "GROVV AUDİT AND CONSULTİNG" MMC-nin direktoru Orxan Abdurahmanov) heç birində iştirak etməmişdir (7 saylı siyahı əlavə olunur).

Məlumat üçün bildirirəm ki, mütəmadi olaraq tədbirlərdə iştirak etməyən üzvlər tədris olunan mövzulardan məlumatsız olduqları üçün xidmət göstərən zaman bilik və peşəkarlıq səviyyələrinin aşağı olması səbəbi ilə risk daşıyıcıları olurlar.

Qeyd olunmalıdır ki, Auditorlar Palatasının təşkil etdiyi "dəyirmi masa"lar, seminar və ustad dərslərinin keçirilməsi Palata üzvlərinə peşə fəaliyyətlərində dəstək göstərilməsi məqsədi daşıyır və auditorların bilik və peşəkarlıq səviyyəsinin artırılmasına xidmət edir.

**Təklif və tövsiyələr**

1. Auditorlar Palatasında 2023-cü il ərzində təşkil olunmuş "dəyirmi masa", seminar və ustad dərsləri Palata üzvləri tərəfindən yüksək qiymətləndirilmiş və həmin tədbirlərdə Palata üzvlərinin iştirakının vəziyyəti barədə aparılmış monitorinqin nəticəsi sübut edir ki, Auditorlar Palatası 2024-cü ildə də bu sahədə aparılan işlərini davam etdirsin;
2. Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tövsiyə olunsun ki, Palatada 2024-cü il ərzində təşkil olunacaq "dəyirmi masa"lar da, seminarlarda və ustad dərslərində fəal iştirak etsinlər;
3. Auditorlar Palatasının məsul icraçılarına tapşırılsın ki, Auditorlar Palatasında nəzərdə tutulan tədbirlərin vaxtında və yüksək keyfiyyətlə keçirilməsini və nəticəsi barədə məlumatların Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilməsini, zəruri hallarda KİV-də işıqlandırılmasını təmin etsinlər.

**Hörmətlə,**

**Audit sistemində icra intizamı və**
**daxili nəzarət şöbəsinin müdiri** **Z.Almazov**

15.12.2023-cü il